# Qəzəl və romans sintezində milli musiqi düşüncəsi



**XX əsrin ortalarında parlayan və öz sanballı yaradıcılığı ilə bu gün də xatırlanan əməkdar incəsənət xadimi, xalq artisti Cahangir Cahangirov 1921-ci il iyunun 20-də paytaxtımızın ən qədim yaşayış məskənlərindən olan Balaxanı qəsəbəsində anadan olub. Milli mədəniyyətin inkişafında mühüm rol oynamış bəstəkarın gətirdiyi yeniliklər, musiqi dilinin fərdi ifadə imkanları və janrlararası sintezə olan meyli C.Cahangirovun musiqi təfəkkürünü formalaşdırmışdır. Bəstəkarın musiqiyə həvəsi sonrakı illərdə dərin elmi və bədii əsaslara söykənən yaradıcılığının ilkin zəminini təşkil etmişdir.**

O, musiqi təhsilinə 7 illik musiqi məktəbində başlamış, Teatr Texnikumunda və musiqi məktəbinin nəzəriyyə şöbəsində davam etmişdir. 1940-cı ildən isə Azərbaycan Dövlət Konservatoriyasında Üzeyir Hacıbəylinin rəhbərliyi ilə musiqi nəzəriyyəsi və xalq musiqisinin əsaslarını dərindən mənimsəmişdir. Bu təhsil prosesi onun gələcək yaradıcılığında həm klassik, həm də xalq musiqisi elementlərinə əsaslanan musiqi dilinin formalaşmasına səbəb olmuşdur. C.Cahangirovun bəstəkar kimi əsas xüsusiyyətlərindən biri onun musiqiyə funksional yanaşması idi. O, əsərlərində yalnız melodik gözəlliyə deyil, həm də musiqinin ictimai-fəlsəfi məzmununa diqqət yetirmişdir. Onun yaradıcılığına nəzər saldıqda simfonik, vokal-simfonik, mahnılar, kantatalar, oratoriyalar və operalar kimi müxtəlif janrlarda istedadı aydın görünür. Bu, bəstəkarın həm texniki baxımdan peşəkarlığını, həm də tematik cəhətdən geniş düşüncə diapazonuna malik olduğunu sübut edir.

Cahangir Cahangirovun 1949-cu ildə yazdığı "Arazın o tayında" vokal-simfonik poeması yalnız bədii cəhətdən deyil, siyasi və ideoloji baxımdan da əhəmiyyətli idi. Burada bəstəkar bir tərəfdən xalqın bölünmüş taleyini musiqi vasitəsilə təsvir edir, digər tərəfdən sovet ideologiyasına uyğun vətənpərvərlik mövzusunu diqqətə çatdırır. Əsərin 1950-ci ildə SSRİ Dövlət Mükafatına layiq görülməsi də onun həm sənət, həm də ideoloji baxımdan qəbul olunduğunu göstərir. C.Cahangirovun irihəcmli əsərləri arasında xüsusi yer tutan "Xanəndənin taleyi" operası həm bioqrafik, həm də ictimai yönümlü səciyyə daşıyır. Müğənni Seyid Mirbabayevin həyat və sənət yoluna həsr olunan opera Azərbaycan vokal sənətinin tarixi inkişaf mərhələlərini sənədləşdirir, digər tərəfdən sənətkarın taleyi fonunda cəmiyyətin keçdiyi sosial-mədəni dəyişiklikləri əks etdirir. Burada musiqi sadəcə estetika yox, həm də sənədli narrativ funksiyası daşıyır.

C.Cahangirovun yaradıcılığında məhəbbət, vətənpərvərlik, əmək, azadlıq və insanın mənəvi-əxlaqi dünyası onun musiqisinin əsas ideya vektorlarını təşkil edir. Bu mövzu müxtəlifliyi bəstəkarın həyat və sənət fəlsəfəsi milli-mədəni kontekstlə dərin əlaqədə formalaşmış və onun əsərlərində ictimai-sosial məsələlər bədii şəkildə ifadə olunmuşdur. Onun yaradıcılığında diqqətçəkən əsas cəhətlərdən biri klassik Azərbaycan poeziyası ilə olan sıx əlaqədir. Bu əlaqə, sadəcə ədəbi mətnlərin nota köçürülməsi ilə kifayətlənmir, bəstəkar poeziyanı musiqi təfəkkürünün ayrılmaz komponentinə çevirir. Xüsusilə, qəzəl janrı dərin semantik məzmunda (bir ifadənin, cümlənin, sözün və ya bütöv mətnin mənaca yükü, məzmun dərinliyi və ifadə etdiyi fikrin mahiyyəti) kimi çıxış edir. Bu istiqamətdə yazılmış əsərlər arasında "Füzuli" və "Nəsimi" kantataları, "Sabir", "Hüseyn Cavid-59" oratoriyaları xüsusi yer tutur. Həmin əsərlərdə



ədəbi söz estetik gücü ilə yanaşı, həm də musiqi, ritm və intonasiyaya çevrilir. Gənclik illərində Nizami Gəncəvinin 800 illiyi münasibətilə yazdığı "Gül camalın" romansı C.Cahangirovun qəzəl janrı ilə erkən yaşlardan maraqlandığını göstərir. Bəstəkar Azərbaycan xor musiqisinin inkişafında da əhəmiyyətli rol oynamışdır. O, xor janrına milli təfəkkür daşıyıcısı kimi yanaşmış, bu janrı xalq musiqisinin intonasiyaları ilə zənginləşdirmişdir. Onun xor yaradıcılığı iki əsas mərhələdə təhlil edilə bilər: Folklor əsaslı adaptasiya mərhələsi, bəstəkar xalq mahnılarını xor üçün işləməklə milli intonasiyaları çoxsəsli musiqi strukturlarında təqdim etmişdir. Orijinal xor yaradıcılığı mərhələsində isə o, xalq ruhunda orijinal xor əsərləri yazmışdır. Bu sıraya "Dostluq nəğməsi" (1956) süitası və vokal-simfonik əsərlərdəki xor parçaları daxildir. Bəstəkarın xor əsərləri tematik və emosional yükü ilə diqqət çəkir. Burada da xalq musiqisinin struktur elementləri - pentatonika, muğam ladları, ritmik modellər əsas kompozisiya ünsürləri kimi çıxış edir.

C.Cahangirovun fərdi üslubunda diqqətçəkən digər mühüm istiqamət muğamın professional musiqi janrları ilə sintezidir. Bu yanaşmanın ən bariz nümunəsi M.İbrahimovun "Gələcək gün" romanı və "Azad qız" povestinin motivləri əsasında yazılmış "Azad" operasıdır. Burada bəstəkar "Çahargah xor muğamı" yaradaraq həm ənənəvi musiqi dilini, həm də operanın dramatik strukturlarını innovativ şəkildə birləşdirmişdir. Bu, C.Cahangirovun muğamı sadəcə folklor element kimi deyil, musiqi dili kimi də istifadə etməyə çalışdığını göstərir.

Bəstəkarın xor musiqisinə verdiyi töhfələr sırf bəstəkarlıqla məhdudlaşmır. Onun 1940-cı illərdən başlayaraq Azərbaycan Dövlət Filarmoniyasının nəzdində Mahnı və Rəqs Ansamblının xor qrupuna və "Sazçı qızlar" ansamblına rəhbərlik etməsi xor musiqisinə sistemli yanaşmasının nümunələridir. 1944-1960-cı illərdə isə Azərbaycan Radio və Televiziyasında xor kollektivinin bədii rəhbəri kimi bu janrın həm təbliğində, həm də ictimai nüfuzunun formalaşmasında əvəzsiz rol oynamışdır. Bu təcrübəni sonralar pedaqoji fəaliyyətində davam etdirmişdir. 1975-1992-ci illərdə Azərbaycan Dövlət Konservatoriyasında (indiki BMA) xor dirijorluğu kafedrasına rəhbərlik edən bəstəkar peşəkar xor dirijorlarının yetişdirilməsində Azərbaycanda xor sənətinin gələcəyini formalaşdırmasında yaxından iştirak etmişdir.

C.Cahangirov instrumental musiqidə yenilikçi mövqeyi ilə seçilmişdir. Xüsusilə, 1951-ci ildə skripka və simfonik orkestr üçün yazdığı konsert bu janrda Azərbaycanda yazılmış ilk nümunələrdən biri kimi tarixə düşüb. Bəstəkar həmçinin tar və xalq çalğı alətləri orkestri ilə konsert yazaraq milli alətlərin simfonik orkestr mühitində istifadəsinə töhfə vermişdir. Bu yanaşma həm milli ruhun qorunması, həm də alətlərin imkanlarının genişlənməsi baxımından əhəmiyyətlidir.

Bəstəkarın yaradıcılığının mühüm qollarından birini də səhnə əsərləri üçün yazılmış musiqilər təşkil edir. Onun "Azad", "Xanəndənin taleyi" kimi operaları və "Təzə gəlin" operettası dramaturji təfəkkürün və musiqidə obraz yaratmaq bacarığının nümunələridir. Eyni zamanda "Molla İbrahim Xəlil kimyagər", "Məlikməmməd" və digər teatr tamaşalarına yazdığı musiqilər onun teatr musiqisi sahəsində ustalığını nümayiş etdirir. Əlavə olaraq, bəstəkar "Dəli Kür", "Koroğlu", "Yenilməz batalyon", "Qızıl uçurum" kimi filmlərə yazdığı musiqilərlə Azərbaycan kino musiqisinin inkişafında da fəal iştirak etmişdir. Bu musiqilər obrazların emosionallığını və mətnin ideya tutumunu gücləndirən vasitə olmuşdur. C.Cahangirov böyükhəcmli simfonik və səhnə əsərləri ilə yanaşı, geniş auditoriya üçün nəzərdə tutulan və yüksək melodik zövqlə işlənmiş mahnılar da bəstələyib. Onun "Zəriflik", "Necə əl çəkim", "Zərif gülüşlüm", "Dan ulduzu, bir də mən", "Ana yurdum", "Bahar olsun", "Bakım", "Ana" və digər əsərlərdə xalq musiqisinə bələdlik, klassik musiqi formaları ilə sintez və melodik incəliklər bəstəkarın fərdi üslubunun əsas komponentləridir.

İmadəddin Nəsimi və Məhəmməd Füzuli yaradıcılığı onun musiqi-poetik təfəkkürünün əsas sütununu təşkil edir. Azərbaycanın böyük mütəfəkkir şairi İmadəddin Nəsiminin 600 illik yubileyi ərəfəsində Cahangir Cahangirov şairin bir qəzəlinə əsaslanaraq "Ənəlhəq" adlı mahnı-romans yazmışdır. "Ənəlhəq" sufizmin fəlsəfi təməlini təşkil edən "Mən Haqqam" ideyasının musiqidə tənzimlənmiş və emosiya ilə yüklənmiş bədii ifadəsidir. Əsərin Azərbaycan Teleradio Verilişləri Şirkətinin keçirdiyi müsabiqədə mükafata layiq görülməsi onun həm peşəkar musiqi ictimaiyyəti, həm də dinləyicilər tərəfindən yüksək qiymətləndirildiyini göstərir. Burada Nəsimi poeziyasının mistik-fəlsəfi qatları C.Cahangirovun melodik duyumu ilə sintez olunur. Füzuli lirikasının musiqiyə çevrilməsi bəstəkarın yaradıcılıq təxəyyülünə son dərəcə uyğun gəlirdi. Onun şeirlərindəki ilahi sevgi ilə eşq arasında keçidlər musiqi dili ilə yenidən qurulur. Ümumiyyətlə, Cahangir Cahangirovun Nəsimi və Füzuli yaradıcılığına çox müraciət etməsi onun dərin bədii-intellektual düşüncəsini göstərir. Bəstəkar bu klassik poeziya nümunələrini melodik obrazlara çevirmiş, yəni sözə musiqi vasitəsilə ikinci həyat vermişdir. Bu yanaşma Üzeyir Hacıbəylidən miras qalmış qəzəl-romans ənənəsinin davamı olmaqla yanaşı, C.Cahangirovun fərdi musiqi baxışlarının təzahürüdür.

1992-ci ildə vəfat edən Cahangir Cahangirovun yaradıcılığı milli-mədəni dəyərləri dərk etmək üçün əvəzsiz sənət nümunələridir.

**Nəzrin ELDARQIZI,**
**"Respublika".**